# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 108

**Bakı şəhəri** «24» dekabr 2015-ci il

**"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2016-cı il üçün mülki müdafiə tədbirlər planının təsdiq edilməsi barədə"**

Sülh və müharibə dövrlərində baş verən fövqəladə hallarda mülki əhalini və dövlət əmlakını mühafizə etmək mülki müdafiənin başlıca vəzifəsidir. Çox saylı insan tələfatı və zədələnmələrə, infrastrukturun dağılmasına, idarə və müəssisələrin iş rejiminin pozulmasına səbəb olan fövqəladə hallarda zərərçəkənlərə hər növ tibbi yardımın göstərilməsi, epidemiyaların qarşısının alınması Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi qarşısında duran əsas vəzifələrdən biridir.

Cari ildə nazirliyin bir sıra şəhər və rayon səhiyyə obyektlərində mülki müdafiə üzrə hazırlıq və hərbi vəzifəlilərin qeydiyyatı, təxsislənmə işinin öyrənilməsi məqsədilə yoxlamalar aparılmışdır. Keçirilmiş kompleks təlim və obyekt məşqlərinin təhlili göstərir ki, rəhbər heyət və mülki müdafiə tibb qüvvələrinin şəxsi heyəti qarşıya qoyulmuş vəzifənin öhdəsindən gəlməyə qadirdir.

Qeyd olunanları nəzərə alaraq və "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununa, "Mülki müdafiənin təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli qərarına uyğun olaraq:

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2016-cı il üçün mülki müdafiə tədbirlər planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan idarə və müəssisə rəhbərlərinə tapşırılsın:

2.1. 2016-cı ildə rəhbər, komandir-rəis heyətinin, mülki müdafiə qüvvələrinin hazırlamasında, fəhlə və qulluqçulara müdafiə qaydalarının öyrədilməsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 1998-ci il tarixli 193 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fövqəladə hadisələrdən müdafiə sahəsində əhalinin hazırlanması qaydaları"na ciddi əməl olunsun;

2.2. səhiyyə idarə və müəssisələrində fövqəladə halların nəticələrinin aradan qaldırılmasına və əhaliyə hər növ tibbi yardımın göstərilməsinə hazırlıq tam təmin edilsin;

2.3. fövqəladə vəziyyət şəraitində tibbi sanitar nəticələrin aradan qaldırılması üçün mülki müdafiə tibb qüvvələrinin şəxsi heyətinin lazımı avadanlıq və dərman preparatları ilə təminatı, dərman ehtiyatının yaradılması və onların təyinatı üzrə istifadəsi təmin edilsin;

2.4. rəhbər heyətin, idarəetmə orqanlarının və mülki müdafiə tibb qüvvələrinin şəxsi heyətinin praktiki hazırlığının təkmilləşdirilməsi üçün mülki müdafiə təlimlərinin keçirilməsi təmin edilsin;

2.5. səhiyyə obyektlərində zirzəmilərin və sığınacaqların təyinata uyğun istifadəsi təmin olunsun;

2.6. obyekt rəhbərlərinin, mülki müdafiə qərargah rəislərinin mülki müdafiə üzrə hazırlığının artırılması məqsədilə Fövqəladə Hallar Nazirliyi tərəfindən təşkil olunan mülki müdafiə kurslarında iştirakı təmin olunsun.

3. Mülki müdafiə üzrə hazırlığın tədrisinə 2016-cı ilin yanvar ayının 5-dən başlanılsın və noyabr ayının 30-da başa çatdırılsın.

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova tapşırılsın:

4.1. ətraf mühitin, içməli suyun, ərzaq mallarının təhlükəsizliyinə nəzarət üçün Müşahidə Laborator Nəzarəti Şəbəkəsinə daxil olan gigiyena və epidemiologiya mərkəzləri lazımı laborator avadanlıq və preparatlarla təmin edilsin;

4.2. gigiyena və epidemiologiya mərkəzlərində Müşahidə Laborator Nəzarəti Şəbəkəsinin işinin təkmilləşdirilməsi məqsədilə planlaşdırılmış təlim və məşqlər keçirilsin.

5. İkinci şöbənin müdiri İ.Verdiyevə tapşırılsın ki, nazirliyin tabeliyində olan idarə və müəssisələrdə mülki müdafiə qərərgah rəisi vəzifələrinə ali təhsilli və təcrübəli şəxslərin təyin olunmasına xüsusi diqqət yetirsin.

6. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 16 dekabr 2014-cü il tarixli 143 nömrəli əmri (6-cı bəndi istisna olmaqla) qüvvədən düşmüş hesab edilsin.

7. Əmrin icrasına nəzarət nazir müavini Elsevər Ağayevə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə
Nazirinin 24.12. 2015-ci il tarixli
108 nömrəli əmri ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2016-cı il üçün Mülki müdafiə tədbirlər

## P L A N I

| S/s | Tədbirlərin adı | Kimlər cəlb edilir | Məsul icraçı | İcra tarixi |
|---|---|---|---|---|
| | **Mülki müdafiə idarəsinin tədbirləri** | | | |
| 1 | Mülki müdafiə qüvvələrini hazırlığının yoxlanılması və metodiki köməkliyin göstərilməsi; | Səhiyyə Nazirliyinin mərkəzi aparatı və müəssisələri | Mülki müdafiə qoşunlarının komandanı | 14-18 mart |
| 2 | Radiasiya, kimya və tibbi-bioloji mühafizə üzrə tədbirlərin yoxlanılması və metodiki köməkliyin göstərilməsi; | Obyektlərin mərkəzi aparatı və tabeliyində olan qurumlar | Mülki müdafiə qoşunları Mülki müdafiə idarəsinin rəisi | 14-18 mart |

| | | | | |
|---|---|---|---|---|
| 3 | Mühəndis mühafizə qurğularının vəziyyətinin yoxlanılması; | Kəşfiyyat qüvvə və vasitələri | Mülki müdafiə qoşunları<br>Mülki müdafiə idarəsinin rəisi | 14-18 mart |
| 3 | Metodiki toplantının keçirilməsi | Mərkəzi icra hakimiyyəti orqanlarının MMQ rəisləri və ya onlara bərabər tutulan şəxslər | Mülki müdafiə qoşunları<br>Mülki müdafiə idarəsinin rəisi | Mülki müdafiə qoşunlarının tədbirlər planına müvafiq |
| | **Səhiyyə Nazirliyinin tədbirləri** | | | |
| 1 | Rəhbər heyətin mülki müdafiə məşqi | Səhiyyə Nazirliyi aparatının rəhbərliyi | Səhiyyə naziri | 14 oktyabr |
| 2 | Xəbərdarliq və toplanış məşqi | MM qəstələrinin şəxsi heyəti | MM qərərgah rəisi | 29 mart<br>28 oktyabr |
| 3 | Rəhbər heyətin 15 saatlıq proqram üzrə hazırlanması | Rəhbər heyət | MM qərərgah rəisi | İl ərzində |
| 4 | MM qəstələrinin şəxsi heyətinin 15 saatlıq proqram üzrə hazırlanması | MM qəstələrinin şəxsi heyəti | MM qərərgah rəisi | İl ərzində |

| | | | | |
|---|---|---|---|---|
| 5 | MM qəstələrinə daxil olmayan işçilərin 12 saatlq proqram üzrə hazırlanması | MM qəstələrinə cəlb olunmayan işçilər | MM qərərgah rəisi | İl ərzində |
| 6 | Obyekt mülki müdafiə məşqi:<br>-Şabran RMX<br>-Ağdaş RMX | Rəhbər heyət , MM qərərgahı, MM qəstə-lərinin şəxsi heyəti,işçilər | Obyekt rəhbəri | 22 avqust<br>25 may |
| 7 | Səhiyyə idarə və müəssisə rəhbərlərinin respublika MM kurslarında hazırlanması | Müəssisə rəhbərləri | MM qərərgah rəisi | FHN Mülki müdafiə Qoşunlarının planına əsasən |
| 8 | 1 mart "Ümumdünya MM günü" ilə baglı tədbirlərin kecirilməsi | Səhiyyə Nazirliyinin təhsil müəssisələri | Müəssisə rəhbərləri | 01 mart |
| 9 | 2015-ci tədris ilinin yekunları və 2016-ci ildə qarşıda duran vəzifələrlə bağlı metodiki toplantının keçirilməsi | Müəssisə rəhbərləri və mülki müdafiə qərərgah rəisləri | Səhiyyə Nazirliyi aparatının rəhbərliyi | 21 dekabr |

| | | | | |
|---|---|---|---|---|
| 10 | Mülki müdafiə üzrə hazırlığın və hərbi vəzifəlilərin qeydiyyatı işinin yoxlanılması<br>-Şamaxı ŞMX, GEM<br>-Qobustan RMX, GEM<br>-Mingəçevir RMX, GEM<br>-Yevlax RMX, GEM | Mülki müdafiə qərərgahı | İkinci şöbə | 23-28 may |
| | -Şabran RMX, GEM<br>-Quba RMX, GEM<br>-Qusar RMX, GEM<br>-Xaçmaz RMX ,GEM | Mülki müdafiə qərərgahı | İkinci şöbə | 22-27 avqust |
| | -Şəki RMX, GEM<br>-Qax RMX, GEM<br>- Balakən RMX, GEM<br>-Zaqatala RMX, GEM<br>-Oğuz MRX, GEM | Mülki müdafiə qərərgahı | İkinci şöbə | 03-08 oktyabr |
| | -Bakı Sağlamlıq Mərkəzi<br>-Bakı ş.1 saylı Kliniki x-na<br>-Melikov ad. 6 saylı Kiliniki xəstəxana | Mülki müdafiə qərərgahı | İkinci şöbə | 08-13 iyun |

**İkinci şöbənin müdiri:** **İ. Verdiyev.**